Nino Beseliya
Nino Bokeriya
Maka Kordzadze

MÜƏLLİMİN KİTABI

# Aktiv vətəndaş necə olmalıyam

IX siniflər üçün Mülki təhsilə köməkçi vəsait

USAID
FROM THE AMERICAN PEOPLE

PH international
ADVANCING SOCIETIES, CONNECTING PEOPLE

**AKTİV VƏTƏNDAŞ NECƏ OLMALIYAM**
**Müəllimin kitabı**

Mülki təhsil dərsliyinə köməkçi vəsait IX sinif üçün, ikinci nəşr

Dərsliyin ikinci nəşri çap üçün "**SEZAN" MMC**-də hazırlanmışdır. İkinci nəşr dərsliyin birinci nəşrinin xırda dəyişikliklərlə yeni versiyasıdır.

Müəlliflər:
**Nino Beseliya**
**Nino Bokeriya**
**Maka Kordzadze**

İşçi qrupun lideri:
**Nino Beseliya**

Birinci nəşr üzərində işləmişlər:

Məsləhətçilər:
**Natiya Natsvlişvili**
**Ketevan Canuaşvili**

Tərcümə edəni: **Qızxanım Əhmədova**
Redaktor: **Oqtay Kazımov**
Dizayner: **Marta Tabukaşvili**
Cildləyən: **Yana Danelyan**

© Project Harmony, Inc., 2015
Bütün hüquqlar qorunur.

Dərsliyin birinci  nəşri çap üçün "Sakartvelos matsne qəzeti" MMC-də hazırlanmışdır.

ISBN 978-9941-0-7439-4

Dərslik Amerika xalqının dəstəyi və Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyinin səyinin nəticəsində hazırlanmışdır. Verilən dərslikdəki informasiya və onda söylənilən fikirlər üzrə məsuliyyət birmənalı şəkildə müəlliflərə aiddir və bu fikirlər Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyinin və ya Amerika Birləşmiş Ştatlarının hökümətinin nəzərlərini təqdim etmirlər.

# Ön söz

2010-2014-cü illərdə Gürcüstanda mülki təhsilin və müəllimlərin yenidən hazırlıq proqramı həyata keçirilmişdir. Proqramı Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyinin (USAİD) maliyyə dəstəyi ilə PH İnternational həyata keçirir. Proqramı Gürcüstan Elm və Təhsil Nazirliyi dəstəkləyir.

Proqramın məqsədi mülki təhsil məktəb proqramının keyfiyyətinin yaxşılaşdırılması və demokratik cəmiyyətin quruculuq prosesində gənclərin iştiraklarına dəstəyin verilməsidir.

Bu məqsədə nail olmaq üçün proqram çərçivəsində mülki təhsilin tədrisi üçün 4 köməkçi vəsait tərtib olundu; müəllimlər üçün treninqlər keçirildi; məktəbdə vətəndaş klubları yaradıldı; şagirdlərin, müəllimlərin və valideynlərin mülki təşəbbüsləri üçün kiçik qrantlar verildi; mülki təhsil müəllimlərinin forumunun əsası qoyuldu; mülki təhsilin yay düşərgələri təşkil edildi; mülki təhsilin və mülki təşəbbüslərin iki internet-portalı www.civics.ge və www.initiatives.ge yaradıldı, şagirdlər üçün sosial media üzrə treninqlər keçirildi və mülki təhsil kitabxanaları açıldı.

Qarşıdakı dərslik proqram çərçivəsində yaradılan köməkçi dərsliklərin seriyasından biridir. Dərslik xırda dəyişikliklərlə təkrarən 2015-ci ildə Mülki təhsilin yeni proqramı "Gələcək nəsil" çərçivəsində çap edilmişdir. Bu proqram da PH International təşkilatı tərəfindən, Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyinin (USAID) maliyyə dəstəyi və Gürcüstan Təhsil və Elm Nazirliyinin dəstəyi ilə həyata keçirilir.

Dərslik müəllimlər üçün nəzərdə tutulmuş və bir çox maraqlı və faydalı məlumatlardan ibarətdir. Onun vasitəsilə müəllimlər şagirdlərə dərsdə alınmış biliyin gündəlik həyatda və fəaliyyətdə istifadə etməkdə, həmfikirlərini, tərəfdaşlarını tapmaqda dəstək verə bilərlər ki, şagirdlər cəmiyyət üçün faydalı layihələri planlaşdırıb həyata keçirsinlər.

Praktiki fəaliyyətdə yaxşı vətəndaşlıq prinsiplərini həyata keçirməklə, şagirdlər güclü demokratik dövlət olaraq, Gürcüstanın quruculuğunda və inkişafında iştirak edəcəklər.

Gələcək nailiyyətlər arzusu ilə,
PH International - Gürcüstan

# MƏZMUN


Giriş 5
Kitabdan necə istifadə edək 7
İstifadə olunan metodların təsviri: 8

**Mövzu 1**
Demokratiya nədir və demokratik cəmiyyət nəyi bildirir 14

**Mövzu 2**
Aktiv vətəndaşlıq və vətəndaş cəmiyyəti (demokratik cəmiyyətin xüsusiyyətləri) 18

**Mövzu 3**
Diskriminasiya və bərabərlik. Hamı fərqlidir, hamı bərabərdir 24

**Mövzu 4**
Vətəndaşa cəmiyyətdən və cəmiyyətə vətəndaşdan nə lazımdır 30

**Mövzu 5**
Aktiv vətəndaşlıq üçün demokratik cəmiyyətin üstünlükləri 36

Əlavə 38
Lüğət 42
İstifadə olunan ədəbiyyat 46
Faydalı linklər 47

# Giriş

Demokratik, hüquqi dövlət və vətəndaş cəmiyyətinin formalaşması tezdəyişən dünyada rəqabət qabiliyyətli və nailiyyətli olan azad, müstəqil, səriştəli şəxsin tərbiyə edilməsini tələb edir. Qarşıdakı dərslik mülki təhsil müəlliminə sinif və sinifdənxaric fəallıqların vasitəsilə şagirdlərin aktiv vətəndaş üçün lazımi vərdiş-bacarıqlarını inkişaf etdirməkdə yardım edəcəkdir.

Bu dərsliyin məqsədi şagirdlərin demokratik cəmiyyətin xüsusiyyətləri haqqında biliklərini , bu biliklərin real həyatda istifadəsi vərdiş-bacarıqlarını inkişaf etdirmək, aktiv vətəndaşlığın zərurətini və müsbət nəticələri göstərməkdir. Bunu nəzərə alaraq dərs materialı elə tərtib olunub ki, təkcə sadəcə biliyin toplanılmasına deyil, eləcə də bu bilikdən yaradıcılıqla istifadə etməyə, təcrübənin qazanılmasına, tədqiqata xidmət edir. Tədris prosesində şagirdin təsviri bacarığı, başqasını duymaq, məsuliyyət hissi inkişaf etməlidir.

Dərs prosesinin ərzində bir konkret layihə planlaşdırılır və həyata keçirilir. Layihə şagirdlər arasında aktiv vətəndaşlıq bacarıqlarının inkişafına dəstək verir və ictimai həyatda cəlb olunmanın onlar üçün müsbət əhəmiyyətini göstərir.



## Kitabdan necə istifadə edək

Dərslik beş mövzudan ibarətdir. Bunlardır:

1. Demokratiya nədir və demokratik cəmiyyət nəyi bildirir;
2. Aktiv vətəndaşlıq və vətəndaş cəmiyyəti (demokratik cəmiyyətin xüsusiyyətləri) ;
3. Diskriminasiya və bərabərlik. Hamı fərqlidir, hamı bərabərdir;
4. Vətəndaşa cəmiyyətdən və cəmiyyətə vətəndaşdan nə lazımdır
5. Aktiv vətəndaşlıq üçün demokratik cəmiyyətin üstünlükləri.

Hər bir mövzu nəzəri hissə ilə başlayır. Sonra tapşırıqlar verilir. Bu tapşırıqları şagirdlər müəllimin köməkliyi ilə yerinə yetirirlər və onların məqsədi dərsdə mənimsənilən nəzəri materialın dərinləşdirilməsidir. Əgər sinfin böyüklüyünə görə dərsdə verilən bütün sinif tapşırıqlarını yerinə yetirmək mümkün olmursa, o zaman sinif tapşırıqlarını nəzərlərinizə əsasən seçin. Hər mövzunun sonunda şagirdlərə tapşırıqlar verilir və onlar da birlikdə bütöv layihəni yaradırlar. Bu layihələr ictimai baxımdan faydalı konkret işin həyata keçirilməsinə istiqamətlənmişdir. Tapşırıqlarda şagirdlər üçün ətraflı şəkildə izah edilmişdir ki, son məqsədə nail olmaq üçün hansı mərhələdə nəyi həyata keçirirlər.

Bu dərslikdən baza və orta pillələrin IX siniflərində istifadə etmək olar. Dərslikdə verilən mövzular şagirdlərə mülki təhsilin mühüm məsələləri haqqında biliklərini dərinləşdirməkdə yardım edəcəkdir. Kitabda terminlərin izahatlı lüğəti də verilir.

## İstifadə olunan metodların təsviri

Aktiv vətəndaşlığın tədrisi məqsədi şagirdləri demokratik cəmiyyətdə yaşamaq qaydası, özünün və başqalarının hüquqlarına hörmətlə yanaşmaq və dözümlülüklə, yəni praktiki yanaşmalar və davranış modeli ilə tanış etməkdir. Bu cür mövzular barədə söhbət etdikdə təbii ki, çoxlu sayda suallar yaranır. Bütün bunlardan irəli gələrək tədris zamanı bir neçə xarakterli tövsiyəni nəzərə almağınızı xahiş edirik:

- Tədrisi interaktiv metodlarla həyata keçirin. Şagirdlərdən hamısını maraqlandırmağa çalışın.
- Çalışın ki,dərs mövzusu barədə söhbət apardıqda və suallar verdikdə şagirdlərə fikirlərini sərbəst ifadə etməyə imkan verəsiniz.
- Şagirdlərə hazır cavabları, doqmaları vepməyin. Suallar verin və onlarla birlikdə məntiqi cavabı axtarın.
- Mülki təhsilin başqa fənlərlə, xüsusilə də: tarixlə, coğrafiya ilə, ədəbiyyatla inteqrasiyasına imkan yaradın.

**Tədris prosesində növbəti metodlardan istifadə olunur:**

**Təlim-tədqiqat işi** - şagirdlər tərəfindən ətraflarında, məktəbdə, qonşuluqda, cəmiyyətdə mövcud gerçəkliyin öyrənilməsini, məlumatların toplanılmasını, onların üzərində işlənilməsini və nəticələrin analizi əsasında yeni biliyin qazanılmasını nəzərdə tutur.

Vəziyyət üzrə modelin hazırlanması – müəyyən qərarların müstəqil şəkildə qəbul edilməsi və qiymətləndirilməsi məqsədilə dərs prosesində real vəziyyətlərin şagirdlər tərəfindən modelləşdirilməsini nəzərdə tutur.

**Qrup işi**

Qrup işi metodundan istifadə etdikdə şagirdlər bir-birlərini dinləməyi, əməkdaşlıq etməyi və bir-birləri ilə razılaşmağı öyrənirlər. Kiçik qruplarda iş passiv şagirdlərin aktivləşdirilməsi üçün effektli bir metoddur. Qruplarda iş üç əsas mərhələdən ibarətdir: tapşırığın qrup tərəfindən yerinə yetirilməsi, qrup işinin təqdim edilməsi, nəticələrin yekunlaşdırılması/ayrılması.

1. Şagirdləri qruplara bölün.
2. Onlara göstərişi aydın şəkildə verin: şagird ondan nəyi və hansı müddətdə yerinə yetirməyi tələb etdiyinizi bilməlidir. Yaxşı olardı ki, təlimat lövhədə və ya böyük formatlı kağızın üzərində yazılsın ki, onu hamı yaxşı görə bilsin.

3. Tapşırığın yerinə yetirilməsi üçün ayrılan vaxt bitənə bir neçə dəqiqə qalmış şagirdlərə xatırladın ki, qrupda işin vaxtı bitir. Qrup nəticələri bir kağızda yekunlaşdırmalı və təqdimatı kimin edəcəyini müəyyənləşdirməlidir.
4. Qrupların üzvlərindən işlərini təqdim etməyi xahiş edin.
5. Nəticələri yekunlaşdırıb ayırın.

**Qrup işinin əsas qaydaları:**

- Bir qrup bir masa arxasında işləyir.
- Qrup işi üçün lazımi vaxt əvvəlcədən müəyyənləşdirilir.
- Qrup nəticələri yazılı şəkildə, bir vərəqdə formalaşdırılır.
- Yaxşı olardı ki, qrupda əvvəlcədən qeydləri kimin yazacağı və nəticələri kimin təqdim edəcəyi müəyyənləşdirilsin.
- Qrup işindən sonra nəticələrin təqdimatı və ya sinifdə müzakirə gəlir.

**Əqli həmlə**

Bu metoddan sinifdə ideyaların toplanılması və çeşidləndirilməsi üçün istifadə olunur. Əqli həmlə iki mərhələdən ibarətdir. Birinci mərhələdə ideyalar toplanılır, ikincidə isə - onlar çeşidlərə ayrılır və seçilir.

1. İlk növbədə, məsələni təqdim edin və qısa şəkildə verin (sualın lövhəyə yazılması yaxşı olardı).
2. Şagirdləri əqli həmlənin qaydaları ilə tanış edin/xatırladın:
   - ideyaların toplanılması mərhələsində söylənilən fikri tənqid etmək / qiymətləndirmək olmaz, bütün söylənilən ideyalar lövhəyə yazılmalıdır, amma şagirdin nəyi nəzərdə tutduğu dəqiqləşdirilməlidir.
   - ideyaların keyfiyyəti deyil, ideyaların sayı daha çox əhəmiyyət daşıyır.
3. Şagirdlərdən xahiş edin ki, məsələ ilə əlaqədar daha çox ideyaları irəli sürsünlər, onların ideyalarını lövhəyə yazın.
4. İdeyalar bitənə qədər sorğunu davam etdirin (ideyaları topladıqda tənqidi və qiymətləndirici ifadələrə yol verməyin).
5. Siniflə birlikdə oxşar ideyaları birləşdirin, qruplaşdırın, əhəmiyyətsiz ideyaları ayırın.
6. Sonda qalan siyahını təhlil edin.

**Diskussiya**

Diskussiyadan hər bir dərsin praktiki hissəsində verilən mövzunu daha dərindən anlatmaq və şagirdlərin mövzunun təhlilinə cəlb olunmalarını artırmaq üçün istifadə edilir. Bu metod məsələnin işlənilib hazırlanması üçün istifadə olunur – şagirdlərin arasında əsaslı müzakirələrin aparılması, fikrin lakonik şəkildə ifadə edilməsi, bir-birini dinləmək və nəticələr çıxarmaq vərdiş-bacarıqları inkişaf edir.

Diskussiya, orta hesabla, 10-25 dəqiqə davam edir. Dərs vaxtının azlığına görə müəllim diskussiya prosesinin planlaşdırılmasına və idarə olunmasına xüsusi diqqət verir.

**Qaydalar:**

1. Diskussiya sualları əvvəlcədən müəyyənləşdirilməlidir (əksər hallarda, sualların ardıcıllığı şagirdin kitabında verilir).
2. Hamıya fikrini ifadə etmək üçün eyni imkan verilir –reqlamentə riayət etmək lazımdır, orta hesabla, fikrini ifadə etmək üçün 2 dəqiqə verilir.
3. Diskussiya vaxtının 10-15 %-i söylənilən fikirlərin müqayisə olunmasına və nəticələrin çıxarılmasına ayrılmalıdır. Əsas nəticələr lövhəyə yazılmalıdır.

**Diskussiyanın aparılma üsulları:**

1. Azad diskussiya – bu halda, şagirdlər əllərini yuxarı qaldırmaqla müəllimə fikirlərini bildirmək istədiklərini işarə edirlər. Balansı saxlamaq üçün əvvəlcədən hər bir şagirdin neçə dəfə fikrini bildirmək imkanı olacağını müəyyənləşdirin (məs., əvvəlcədən sinifdə jetonları və ya kibrit dənələrini paylayın). Əgər diskussiya üçün az vaxt ayrılmışdırsa, hər bir şagirdə bir kibrit dənəsi verin, əgər vaxtınız çoxdursa – o zaman 2-3 dənə. Hər bir fikir söylənildikdən sonra şagirdlər kibrit dənəsinin birini geri qaytarmalıdırlar. Diskussiyanın sonunda kimdə neçə kibrit dənəsinin qaldığını yoxlayın (kibrit dənələrinin və ya jetonların istifadəsi ilə sıralar və qruplar arasında yarış təşkil edə bilərsiniz).
2. Ardıcıl diskussiya – müəllim sıra ilə və ya şəxsi nəzəriyyəsinə əsasən konkret şagirdə və ya qrupa sual verir (məsələn, birinci qrupdan/sıradan bu suala kim cavab verəcəkdir). Şərti olaraq "mikrofonun" rolunu yerinə yetirəcəkqələmdən, yaxud da başqa əşyadanistifadə edə bilərsiniz.

   Diskussiyanın daha bir variantı odur ki, diskussiya sualına cavab verən şagirdin özü növbəti suala kimin cavab verəcəyini müəyyən etsin .
3. Təmsilçi qrup – müəllim bir neçə həvəskardan irəli çıxmağı  və sinfin qarşısında verilən məsələ üzrə diskussiya aparmağı xahiş edir. Təmsilçi qrupun diskussiyası bitdikdən sonra qalan uşaqlar şərhlər edirlər.

**Nəzəri təqdimat**

Müəllimin təqdimatı 10 dəqiqədən artıq olmamalıdır.Qısa təqdimatı planlaşdırmaq çətindir və əvvəlcədən hazırlığı tələb edir. Müəllim əvvəlcədən materialın çatdırılmasının planını müəyyənləşdirilməlidir.

**Təqdimat üç əsas mərhələdən ibarətdir:**

Yaxşı olardı ki, əsas hissə üç başlıca sualdan çox olsun.

1. **Giriş** – bu hissənin təqdimatına təxminən vaxtın 20%-i ayrılır. Uşaqlara növbətiləri söyləyin:

a) təqdimatın məqsədi.

b) şagirdlərin maraqlarına səbəb olan sual və ya misal.

c) təqdimatın əsas hissəsinin icmalı (təqdimat hansı məsələlərə aiddir).

2. **Əsas hissə** - bu hissənin təqdimatına ümumi vaxtın təxminən 70%-i ayrılır: əsas hissənin üç başlıca məsələdən çox olmaması yaxşı olardı. Şagirdlərə əsas sözləri deyin:

1. Məsələ 1 - qısa xülasə, keçid.
2. Məsələ 2 - qısa xülasə, keçid.
3. Məsələ 3 - qısa xülasə.

3. **Nəticə** - bu hissənin təqdimatına ümumi vaxtın təxminən 10%-i ayrılır.

Şagirdlərə artıq söylədiklərinizi təkrar edin –təqdimatın əsas məsələlərinin yekunlaşdırılması və əsas nəticələr.

10-dəqiqəlik təqdimat üçün bir əyanilikdən istifadə etmək tamamilə kifayət edir. Əyanilik sadə və aydın olmalıdır. Əyaniliklər haqqında verilən informasiyanın təqdimatın mətni ilə sözbəsöz təkrarlanmaması yaxşı olardı. Əyaniliyə informasiya əlavə etmək və materialı strukturlaşdırmaq lazımdır. Sizə məlum olduğu kimi, şagirdlərin əksəriyyəti informasiyanın çox hissəsini görmə qabiliyyəti ilə qəbul edir, ən çox qulaq asdığı, gördüyü və praktiki həyata keçirdiyi informasiyanı yadda saxlayır. Bunun üçün də informasiyanı çatdırdıqda şagird üçün əyaniliklərin istifadəsi və praktiki işi həyata keçirməsi vacibdir.

**Dialoq**

Dialoq vasitəsilə problemli məsələləri təhlil etdikdə açıq kommunikasiya yarana bilər.

Bu metodun 2000 yaşı var. Dialoq vasitəsilə problemin həlli öz əsasını yunan fəlsəfəsindən götürür. Dialoqun nailiyyətlə və nəticəli keçməsi üçün növbəti təlimatları nəzərə almalısınız:

1. Fikrini sizinlə paylaşan insana hörmətlə yanaşın (sizin onunla razılaşmamağa ixtiyarınız var, amma onu susdurmağa hüququnuz yoxdur).
2. Fikrinizi elə bildirin ki, başqasını təhqir etməyəsiniz.
3. Həqiqət üçün mübarizə aparın (dezinformasiyanı tapın və düzəldin).
4. Fikrinizi aydın şəkildə ifadə edin.

Dialoq prosesində müəllimin borcu hər hansı bir konkret mövqeni tutmaq deyil, diskussiyanı aparmaq, müzakirə olunası məsələ ilə əlaqədar mülki dəyərləri müəyyənləşdirmək, əsas fikri ayırmaqdır.

Dialoqu apardıqda düzgün qoyulan suallar bizə yardım edəcəkdir. O, söhbətə istiqamət verəcək və şagirdlərin təfəkkürlərini həvəsləndirəcəkdir. Müəllim ona bir neçə dərs saatının gərək olacağını nəzərə almalıdır ki, şagirdlər diskussiyaya fəal surətdə cəlb olunsun, özlərini rahat hiss etsin və öz fikirlərini sərbəst ifadə etsinlər.

# Mövzu 1



# Demokratiya nədir və demokratik cəmiyyət nəyi bildirir



Mövzu 1

# Demokratiya nədir və demokratik cəmiyyət nəyi bildirir

## 1-nci dərs

**Dərsin məqsədi:**

**Bilik**

Şagird demokratik cəmiyyətin əsaslarını mənimsəməli, demokratik cəmiyyət üçün xarakterik əsas dəyərlərlə tanış olmalıdır.

**Bacarıqlar**

Şagird mənimsənilən biliyi təcrübədə istifadə edə bilməli, məktəbdə, icmada tətbiq etməli və bu prinsiplərə əməl etməlidir.

**Yanaşmalar**

Şagird digər növ ictimai mənbə ilə müqayisədə demokratik tipli cəmiyyətin üstünlüyünü dərk edir, demokratik dəyərlərin bərqərar olunması zərurətini anlayır, tolerantlığa, plüralizmə və kompromisin əldə edilməsi prinsiplərinə hörmətlə yanaşır.

Məsələni təqdim edirsiniz – 2-3 dəqiqə.

Dərsin əsas məqsədini qısaca xarakterizə edin.

**Nəzəri hissənin izahatına bu suallarla başlayın:**

- Sizin fikrinizcə, demokratiya nədir?
- Demokratik dövlət necədir? İcma? Qonşuluq? Məktəb?

İki dairə çəkin. Birincidə yazın: "demokratiya", ikincidə "demokratik dövlət/qonşuluq/icma/ məktəb". Şagirdlərə tapşırıq verin, dairələrin ətrafında çəkilən şüalara demokratiyanın (1-ci dairə) və demokratik dövlətin, qonşuluğun, icmanın, məktəbin xüsusiyyətlərini (2-ci dairə) yazın.

Cavabları analiz edin və demokratiya üçün insan hüquqlarının qorunmasının səciyyəvi olduğunu; demokratiya və insan



hüquqlarının ayrılmaz olduğunu izah edin. İnsan hüquqlarının qorunmadığı yerdə həqiqi demokratiya olmur.

**Yekunlaşdırma**

Metodiki hissədə verilən təlimata əsasən birinci mövzunun nəzəri materialının təqdimatını edin. Demokratiya üçün xarakterik olan terminologiyanı vurğulayın (plüralizm, tolerantlıq, kompromis).

**Tapşırıq 1**

Şagirdlərdən şagirdin kitabında verilən xəritənin cədvəlində sadalanan dövlətləri axtarmağı və bu ölkələrdə demokratiyanın səviyyəsi haqqında müzakirələri aparmağı xahiş edin.

**Tapşırıq 2**

Sinfi qruplara bölün. Müəllimin 2011-ci ilin fevralında Yaxın Şərqdə baş verən demokratik proseslər barədə əvvəlcədən hazırlanmış materialı olmalıdır və tapşırıq ətrafında diskussiya aparın.

**Tapşırıq 3**

Şagirdlərə Revaz İnanişvilinin "Qolqofada balaca oğlan" hekayəsini oxumağı tapşırın (bu tapşırığı evdə yerinə yetirmək üçün verə bilərsiniz).
Şagirdin kitabında verilən suallardan istifadə etməklə diskussiya aparın.

## Layihə üzərində iş – I pillə

Hər dərsin sonundakı tapşırıq layihə üzərində işə aiddir. 6 dərsin ərzində şagirdlər layihə yazmağa və yerinə yetirməyə başlayır, icmada, məktəbdə və ya cəmiyyətdə mövcud olan aktual problemlər üzərində işləyir, problemlə əlaqədar məlumatları toplayır və onların üzərində işləyirlər.

Qeyd etdiyimiz kimi, layihə üzərində iş elə birinci dərsdən başlayır. Şagirdlərə layihə üzərində işin əhəmiyyəti barədə məlumat verin. Şagirdləri layihə üzərində işin pillələri ilə tanış edin; icmada mövcud olan problemləri necə eyniləşdirmək mümkün olduğunu izah edin. Bütün mühüm terminlər şagirdin və müəllimin kitablarının sonunda verilən lüğətdə izah edilmişdir. Diqqət verin ki, şagirdlər terminlərin əhəmiyyətini dərk etsinlər. "Sözlər sütunundan" istifadə etməyiniz yaxşı olardı.

# Mövzu 2



# Fəal vətəndaşlıq və vətəndaş cəmiyyəti (demokratik cəmiyyətin xüsusiyyətləri)



Mövzu 2

# Fəal vətəndaşlıq və vətəndaş cəmiyyəti (demokratik cəmiyyətin xüsusiyyətləri)

## 2-nci dərs

**Dərsin məqsədi:**

Dərsin məqsədi ondan ibarətdir ki, şagirdlər dövlətin quruculuq prosesində vətəndaş cəmiyyətinin əhəmiyyətini dərk etsinlər;

Problemi necə həll etməyi və ictimai işlərdə necə iştirak etməyi anlasınlar;

Dərsi birinci dərsdə mənimsənilən materialın qısa sorğusu ilə başlayırıq.

**Tapşırıq 1**

Şagirdlərə diskussiyanın aparılma üsullarını öyrədin. Diskussiya və mübahisə arasında fərqi dərk etdirin. Material şagirdin kitabında verilmişdir.

**Tapşırıq 2**

Şagirdlər asudə vaxtın düzgün təşkil edilməsini müzakirə edirlər.

**Tapşırıq 3**

Şagidlər problemin həlli prosesində iştirak etməyin nə dərəcədə vacib olduğunu dərk etməlidirlər.

## Tapşırıq 4

Şagirdlər münaqişələrin həlli və problemin həlli yollarının axtarışı strategiyaları barədə müzakirə etməlidirlər. Onlar tapşırığın vasitəsilə anlamalıdırlar ki, problemin həlli zamanı kənara çəkilmək nə dərəcədə pis təsir göstərir və problemin həllinin ən yaxşı vasitəsi tərəflər arasında razılıq əldə etməkdir.

## Tapşırıq 5

Şagirdlər məktəbin, qonşuluğun, icmada azlıq təşkil edən və ya sosial cəhətdən müdafiəsiz qrupların və onların problemlərinin adını çəkməli və lövhəyə yazmalıdırlar.

Lövhədə "azlıq" sözünü yazın və ondan çıxan üç şüanı ayırın: onlardan hər birinə yazın: - icma, qonşuluq, məktəb. Şagirdlərdən xahiş edin ki, azlıqları və sosial cəhətdən müdafiəsiz qrupları sadalasınlar və siz də müvafiq şüa altında sütunlarda onları yazın.

**Mümkün variantlar:**

İcma: köçkünlər, qocalar, qocalar və ya kimsəsiz uşaq evlərinin üzvləri, məhdud imkanlı şəxslər, etnik azlıqlar.

Qonşuluq: sosial cəhətdən təminatsız ailələr, qocalar, uşaqlar, etnik azlıqların nümayəndələri, məhdud imkanlı şəxslər.

**Şagirdlərə suallar verin:**

- Necə düşünürsünüz, növbəti məsələ nəyi nəzərdə tutur – demokratik prinsiplə hər hansı bir qərarın qəbul edilməsi;
- Necə düşünürsünüz, azlıqların və ya sosial cəhətdən təminatsızların konkret problemlərinin təyin edilməsi üçün necə hərəkət etməlisiniz?

Bu sualların ətrafında diskussiyanı elə aparın ki, şagirdlər qərarların həqiqətən də demokratik qayda ilə qəbul edilməsi haqqında nəzərlərini düzgün formalaşdırsınlar. Eləcə də düzgün konkret problemlərin eyniləşdirilməsinin necə mümkün olduğunu və bunun üçün hansı konkret addımların atılmasının lazım gəldiyini

(bu insanlar arasında sorğuların aparılması, onlar haqqında informasiya axtarışı, dövlət strukturlarından və özünuidarəetmə orqanlarından lazımi informasiyanın tələb edilməsi) anlasınlar.

Tapşırığın məqsədi odur ki, şagirdlər azlıqların problemləri və onların cəmiyyətdə inteqrasiya ehtiyacları barədə düşünsünlər.

**Tapşırıq 6**

**Sinfimizin hüquq-vəzifələri**

Sinfə suallar verin:

- Necə düşünürsünüz, qaydalar və vəzifələr arasında hansı fərq vardır?
- Hüquqlar və qaydalar arasında hansı əlaqə var?

Diskussiya aparın (2-3 dəqiqə).

- İndi hər bir hüququn ətrafında göstərin: hər bir insana hansı konkret vəzifə tapşırılır ki, bu hüquqla hamının faydalanması təmin edilsin.

Misal:

| Hüquqlar | Vəzifələr |
|---|---|
| **Hər kəsin hüququ var ki, ona ədalətlə yanaşılsın;** | **Mənim vəzifəmdir ki, hamıya ədalətlə yanaşım;** |
| **Hamının fikrini ifadə etmək imkanı vardır….** | **Hamıya fikrini bildirmək imkanını verməliyəm…** |

Şagirdlərdən yenə də sadalanan hüquqlara və vəzifələrə nəzər salmağı xahiş edin. Nə isə əlavə etmək lazım deyilki? Düşünsünlər ki, bütün sinfin “hüquq-vəzifələri” kimi bu elanlardan istifadə edə bilərlərmi?

Hər bir qrup tərəfindən hazırlanan hüquq-vəzifələrin cədvəlinin birləşə bildiyini, tam şəkil ala və bütün sinfin hüquq-vəzifələri kimi təşkil oluna bildiyini izah edin. Tapşırığın yerinə yetirilməsi nəticəsində, uşaqlar demokratik dəyərlərin üstünlüyünü analiz etməli, bu qaydaları özləri yaratdıqlarını dərk etməli və bunları rəhbər tutmalıdırlar ki, özlərinin və başqalarının hüquqlarını müdafiə edə bilsinlər.

**Növbəti suallar ətrafında qısa diskussiya aparın:**

- Sinfiniz tərəfindən yaradılan qaydalara əməl etmək istəyirsinizmi və ya yox?
- Kimsə hər hansı bir qaydanı pozarsa, nə baş verər?
- Qaydaları pozduqlarına görə şagirdlərin cəzalandırılması və başqalarına izaha vermələri lazımdırmı? Nə üçün?
- Hamının sinif tərəfindən hazırlanmış sənəd üzərində məsuliyyət daşıdığında cavabdeh kimdir?

Sizin fikrinizcə, şagirdlər tərəfindən işlənib hazırlanan sinif qaydalarının hansı müsbət nəticələri vardır? İki misal gətirin.

- Məktəbinizdə şagirdlərlə əlaqədar tərtib etdilməsində məktəb şagirdlərinin iştirak etdikləri hər hansı bir qaydalar, təlimatlar və ya prosedurlar varmı?
- Bu qaydalarla razısınızmı və ya yox?
- Onları dəyişmək olarmı və ya yox? Necə?
- İnsanlar qaydalara riayət etmədikdə nə baş verir?

## Layihə üzərində iş – II pillə:

Birinci pillənin tapşırığını yoxlayın.

Şagirdlərə onların ikinci mərhələdə nə etməli, yəni layihə üçün uyğun problemi necə seçməli (baxın, Şagirdin kitabı, səh. 33) olduqlarını izah edin.

# Mövzu 3



# Diskriminasiya və bərabərlik – hamı fərqlidir, hamı bərabərdir



Mövzu 3

# Diskriminasiya və bərabərlik – hamı fərqlidir, hamı bərabərdir

## 3-ncü dərs

**Dərsin məqsədi:**

**Bilik**

Şagird insan hüquqlarının əhəmiyyətini dərk etməli;

İnsan hüquqları və demokratiyanın qarşılıqlı əlaqədə və bir-birindən ayrılmaz anlayış olduqlarını anlamalıdır;

Stereotip, diskriminasiya, stiqma kimi terminlərin məzmununu anlamalıdır.

**Bacarıqlar**

Şagird mənimsədiyi bilikdən təcrübədə istifadə edə bilməli, yəni real həyatda insan hüquqlarının pozulduğunu aşkar edə və bu hüquqları müdafiə edə bilməlidir.

**Yanaşmalar**

Şagirddə insan hüquqlarının pozulmasına qarşı mənfi yanaşma formalaşmalıdır. O dərk etməlidir ki, bu pozuntulara qarşı soyuqqanlı olmalı deyil və gündəlik həyatda insan hüquqlarını qorumalıdır.

**Tapşırıq 1**

Şagirdlərə Gürcüstan tarixindən, ədəbiyyatından tolerantlıq və qeyri-tolerantlıq hallarını xatırladın.

**Tapşırıq 2**

“Çirkli paltarlar” əhvalatını oxuyun. Stereotipin yaradılmasına nəyin şərait yaratdığını təhlil edin.

## Tapşırıq 3

Şagirdlər 1-ci sxemdən istifadə etməklə üç tolerant və 3 qeyri-tolerant hərəkəti seçir, təsadüfən özlərinin etdikləri, yaxud da kiminsə onlara qarşı etdiyi hərəkəti xarakterizə edirlər. Sonra 2-ci sxemi doldururlar.

## Tapşırıq 4

Şagirdlər tapşırıq blokunda verilən şəkli təsvir edirlər. Sosial cəhətdən təminatsız insanlar barədə müzakirələr aparırlar. Cəmiyyət onlara necə yardım edə bilər.

## Tapşırıq 5

Şagirdlər misallar gətirirlər ki, tolerant nəzərləri necə bərqərar etmək mümkündür. Sadalanan suallar ətrafında diskussiya aparın:

- Stereotipin necə formalaşdığını təsvir edin.
- Televiziya verilişi və ya kinofilm qəhrəmanı şəklində stereotipə misal gətirin.

**Suallara cavab verin:**

- Nə üçün bəzi insanlar skinhedlər kimi birliklərdə birləşirlər?
- Diskriminasiya və yalançı inanclar nəinki “qurban üçün”, eləcə də diskriminasiyanı həyata keçirən üçün də ziyan verəndir. Nə üçün?
- Ətrafımızda mövcud inancları yox etmək üçün nə etmək lazımdır?

## Tapşırıq 6

Şagirdlər şagirdin kitabında verilən cümlələri bitirməlidirlər. Lövhəyə yarımçıq cümlələri yazın və şagirdlərə təklif edin ki, öz fikirlərini tamamlasınlar – bir sözlə. Bu sözləri lövhədə hər cümlənin altından yazın. Tapşırığın məqsədi şagirdlərin praktiki misallarına əsaslanaraq stereotip fikirlərin misallarını göstərməkdir. Cümlələri bitirin:

Bütün riyaziyyatçılar ----------------------------------------------------------------------

Futbolçular --------------------------------------------------------------------------------

Gözəl qadınlar ----------------------------------------------------------------------------

## Tapşırıq 7

Şagirdlər diskriminasiyanın səbəblərini və onların qarşısının alınma yollarını dərk etməlidirlər.

**Tapşırıq 8**

Şagirdlər mətni oxuyur və tapşırıqda verilən suallara cavab verirlər. Tapşırığın məqsədi gender bərabərliyi məsələsini irəli çəkməkdir. Sinifdə, ailədə, icmada, cəmiyyətdə qadının və kişinin bərabər hüquqlarını vurğulayın.

**Tapşırıq 9**

"Xoş yol yoldaşı"
*(Təlimat şagirdin kitabında verilmişdir)*

## Layihə üzərində iş – III pillə

Layihə üzərində işin üçüncü pilləsində seçilən problem haqqında əlavə məlumat toplanılmalıdır. Şagirdlər kiçikmiqyaslı tədqiqat keçirməlidirlər (materiala baxın: Şagirdin kitabı, səh. 49-52).

# Diskriminasiyanı necə dəf edə bilərik; Bulinq nədir

## 4-cü dərs

### Dərsin məqsədi:

Dərsin məqsədi ondan ibarətdir ki, şagirdlər diskriminasiyanı dəf etmə yolları ilə tanış olsunlar və bulinqin nə olduğunu və məktəbdə zorakılığın bu növünün qarşısını necə almağı anlasınlar.

Dərsi nəzəri materialı izah etməklə başlayın. Məktəbdə diskriminasiyanın təzahürü kimi bulinqi vurğulayın. İnsanların müxtəlifliyini və onların bərabərliyini bir daha xatırladın.

Çalışmaların vasitəsilə şagirdlərə imkan yaradın ki, onların dialoqun aparılması, fəal dinləmə, empatiya/şəfqət göstərmə vərdiş-bacarıqları inkişaf etsin.

**Tapşırıq 1**

Əhvalatı oxuduqdan sonra aşağıda verilən suallardan istifadə edərək diskussiya aparın:

- Necə düşünürsünüz, burada ədalətsizlik haradadır?
- Özünüzü Anrinin yerində təsəvvür edin, nə hiss edərdiniz?
- Yerində olmaq istəmədiyiniz qəhrəmanları sadalayın. Nə üçün? Onların yerində olsaydınız, necə hərəkət edərdiniz?
- Əgər belə bir vəziyyət sinfinizdə və ya həyatinizdə yaransaydı, nə edərdiniz?

Diskussiya prosesini elə aparmalısınız ki, hər hansı bir konkret şəxsi məsələni irəli sürməklə narahat vəziyyət yaranmasın. Eyni zamanda şagirdlər tapşırıqda verilən vəziyyəti real vəziyyətlərlə eyniləşdirə bilməli və bu zaman insan hüquqlarınınpozulduğunu və bir çox hallarda diskriminasiyanın baş verdiyini anlamalıdırlar.

Əgər dərsin vaxtı imkan verirsə, o zaman sinifdən tapşırığın personajlarını seçin və təsvir edilən vəziyyəti oynayın.

Şagirdlərə atalar sözünü xatırladın: "Ən azı üç gün qonşunun yerində olmayana qədər onu mühakimə etmə".

**Tapşırıq 2**

Şagirdin kitabında məhdud imkanlı insanlar haqqında dəlillər göstərilir. Şagirdlər müzakirə etməlidirlər ki, bu insanlara qarşı belə bir yanaşma nə dərəcədə doğrudur.

**Tapşırıq 3**

Bulinqlə əlaqədar diskussiya aparın.

**Tapşırıq 4**

Şagirdlər güc sözü ilə əlaqədar atalar sözlərini, təmsilləri xatırlayırlar. Sözlü diskriminasiya haqqında diskussiya aparın. Ədəbiyyatla inteqrativ dərsin keçilməsi məqsədəuyğun olardı.

## Layihə üzərində iş – IV pillə

Layihənin 4-cü pilləsində şagirdlər problemin həlli yollarını tapmalı və layihəni planlaşdırmalıdırlar.

# Mövzu 4



# Vətəndaşa cəmiyyətdən və cəmiyyətə vətəndaşdan nə lazımdır



# Mövzu 4

# Vətəndaşa cəmiyyətdən və cəmiyyətə vətəndaşdan nə lazımdır

## 5-ci dərs

**Dərsin məqsədi:**

Şagird vətəndaşın ictimai həyata cəlb olunmasının nə dərəcədə vacib olduğunu dərk etməlidir.

**Bilik**

Şagird dərk etməlidir ki, demokratik cəmiyyətin vətəndaşlığı hüquqların və vəzifələrin birliyidir. Vətəndaşa dövlətdən onun hüquqlarının qorunması lazımdır, amma hər bir vətəndaşın məsuliyyəti və borcu öz hüquqları ilə birlikdə başqalarının eyni hüquqlarını da qorumaqdır.

**Bacarıqlar**

Şagird mənimsənilən biliyi təcrübədə istifadə edə bilməli, yəni bu və ya digər ictimai problemin həllində fəal iştirak edə bilməlidir.

**Yanaşmalar**

Şagirdin ictimaiyyətin aktiv üzvü üçün mühüm yanaşmaları formalaşmalıdır. O dərk etməlidir ki, vətəndaşın aktiv, azad həmiştirakı icmanın və bütövlükdə ölkənin ictimai həyatında demokratik cəmiyyətin üzvünün vəzifəsidir.

Dərsə məsələni təqdim etməklə başlayırıq – 2-3 dəqiqə.

Qısaca dərsin əsas məsələsini xarakterizə edin.

Dərsə nəzəri materialın icmalı ilə başlayın.

Sinif tapşırığını yerinə yetirdikdə diqqət verin ki, şagirdlərin arasında növbəti suala düzgün cavab formalaşsın:

Cəmiyyətə vətəndaşdan nə lazımdır və əksinə?

Aktiv vətəndaşlıq nə üçün demokratik cəmiyyətdə həyat qaydasıdır?

**Tapşırıq 1**

**Qrup işi:**

Şagirdlər "Afinalı əsgərlərin dəfn mərasimində Periklin nitqini" müstəqil olaraq oxuyurlar.

Hər bir qrup yazılı şəkildə növbəti suallara cavab verir:

- Sizin fikrinizcə, Perikl nə üçün ictimai işlərdən uzaq olan insanı "sakit" deyil, faydasız insan adlandırırdı?
- Tanışlarınızın arasında Periklin faydalı hesab etdiyi insanları sadalaya bilərsinizmi? Nə üçün?
- Ölkənin ictimai inkişafına xüsusi töhfə verən gürcü ictimai xadimlərini yadınıza salın.
- Bir daha formalaşdırın, cəmiyyətə vətəndaşdan nə lazımdır və ya əksinə? Cəmiyyətə sizdən və cəmiyyətinizdən nə lazımdır?
- Sizin fikrinizcə, Periklin dövründə Yunanıstanda vətəndaşların özlərini gerçəkləşdirmələri üçün əlverişli şərait var idimi və ya yox? Fikrinizi əsaslandırın.
- Müasir Gürcüstanda belə bir şərait varmı və ya yox? Fikrinizi əsaslandırın.

Qruplara sinfi öz cavabları ilə tanış etmələrini təklif edin. Bu məsələ ətrafında diskussiya aparın.

**Tapşırıq 2**

"Canlı ölüyə bənzəyən insan faydasızdır ki, dünyada olarkən dünyanın qayğısına qalmasın". Diskussiya aparın ki, şagirdlər Periklin sözləri və Nikoloz Barataşvilinin bu ifadəsi arasında ümumi olanı görsünlər (diskussiya suallarına baxın, Şagirdin kitabı səh.64)

## Tapşırıq 3

Şagirdlərə 9 Aprel faciəsi ilə əlaqədar Otar Çiladzenin sözlərini oxuyun və suallara cavab verin:

- 9 aprel qəhrəmanlarını nə üçün unutmamalıyıq?
- Onlar insanın hansı azadlığını müdafiə edirdilər?
- Qaranlıqdan işığa birbaşa çıxış təhlükəlidir – işığı unutmuş kor ola bilər və ən adi maneə də taleyimizi həll edə bilər…” – necə fikirləşirsiniz, mətnin müəllifi bu sözlərdə nəyi nəzərdə tuturdu?

Bu suallar ətrafında diskussiya aparın. Üçüncü suala diqqət verin.

## Tapşırıq 4

Şagirdlərə hər hansı bir konkret insan hüquqlarının müdafiəçisinin həyatı və fəaliyyəti haqqında danışın (məsələn, Mahatma Qandi, Tereza Ana, Eleonora Ruzvelt, nəzərinizə əsasən seçim edə bilərsiniz). Şagirdləri dinləyin ki, belə bir şəxsiyyətlər haqqında hansı məlumata malikdirlər. Tapşırıq verin ki, bir və ya bir neçə hüquq müdafiəçilərinin həyatı və fəaliyyəti ilə əlaqədar məlumat axtarsınlar və tanış olsunlar. Sinfi qruplara ayırın (4-5 nəfər). Tapşırıq verin ki, “Sülh müdafiəçiləri”-nin həyatından parçaları oxusunlar və bu unsanları nə birləşdirdiyini düşünsünlər.

## Tapşırıq 5

**Qrup işi:**

Fəallığın məqsədi: şagirdlər məktəbin misalında dövlətin, cəmiyyətin və vətəndaşın qarşılıqlı yanaşmalarını anlayırlar.

- formalaşdırın ki, şagirdə (müəllimə, məktəbin hər hansı bir başqa əməkdaşına) məktəbdən nə lazımdır və məktəbə şagirddən (müəllimdən, məktəbin digər əməkdaşından) nə lazımdır?
- məktəbin və ya yerli özünüidarəetmənin hansı funksiyalarının olduğunu qısaca analiz edin; problemi həll etməkdə nə üçün onlara müraciət etmək lazımdır; bu yol nə üçün demokratikdir.

## Tapşırıq 6

**İbrətli hekayə – “Hansı münasibətimiz var”**

İbrətli hekayəni oxuyun və şagirdlərə tapşırılan vəzifənin alnıaçıq yerinə yetirilməsinin nə dərəcədə vacib olmasını anladın.

## Layihə üzərində iş – V pillə

Şagirdlər layihəyə yekun şəkil verirlər (baxın, Əlavə səh. 38-41; Şagirdin kitabı, səh.. 83-86).

Şagirdləri portfolionun qiymətləndirmə meyarları ilə tanış edin.

Sonra şagirdlər layihəyə forma verməlidirlər. Eləcə də, yerli özünüidarəetməyə və ya digər müvafiq struktura müraciət hazırlamalıdırlar. Bu müraciət layihəyə əlavə olunmalıdır. Şagirdlər layihəni və müraciət mətnini növbəti dərsdə təqdim edirlər. Layihəyə forma verilmə prosesində şagirdlər şagirdin kitabında 83-84 səhifələrində verilən təlimatları rəhbər tutmalıdırlar.

# Mövzu 5



# Aktiv vətəndaş üçün demokratik cəmiyyətin üstünlükləri



# Mövzu 5

# Aktiv vətəndaş üçün demokratik cəmiyyətin üstünlükləri

## 6-cı dərs

**Dərsin məqsədi:**

Yekunlaşdırıcı dərs.

**Bilik**

Şagird aktiv vətəndaş necə olmağını dərk etməlidir. O, demokratiyanın inkişafı yollarında demokratik dəyərləri və onların əhəmiyyətini dərk etməlidir. Çalışın ki, şagirdlər hər bir demokratik dəyərlər barədə müzakirələr aparsınlar. Şagirdlər tərəfindən birinci fəsildə demokratiya barədə doldurulan fikir xəritəsinə qayıtmaq olar ki, onlar yeni alınan biliyi, vərdiş-bacarıqları, yanaşmaları əlavə etsinlər (terminlər, dəyərlər, fikirlər və s.)

**Bacarıqlar**

Şagird mənimsənilən biliyi təcrübədə istifadə edə bilməlidir, yəni cəmiyyət üçün faydalı məsələləri həll etmək üçün real addımlar ata bilməlidir ki, icmanın, məktəbin ictimai həyatına fəal şəkildə cəlb olunsun, həm özünün, eləcə də başqalarının hüquqlarını qoruya bilsin. Bunun üçün maraqlarına əsasən qeyri-hökumət təşkilatını, şagirdlərin birliyini/klubu seçə və onunla əməkdaşlıq edə bilər.

Şagirdlərdən xahiş edin ki, verilən vəziyyətlə tanış olsunlar (baxın, şagirdin kitabı, səh. 78) və dilemmanın nə olduğunu və Salomenin nə üçün qərar qəbul etməkdə çətinlik çəkdiyini təhlil edin.

**Yanaşmalar**

Şagird dərk edir ki, demokratiya vətəndaşın fəallığı xaricində inkişaf edə bilməz və əsl demokratik cəmiyyətdə həqiqətən də hər bir vətəndaşın səsini dinləyirlər.

## Layihə üzərində iş – VI pillə:

**Layihənin təqdimatı**

Bu dərsdə şagirdlər layihəni təqdim edirlər. Təqdim edilən layihənin/portfolionun təqdimatı keçirilir.

Əgər layihə müvafiq idarəetmə orqanlarına təqdim olunmalıdırsa, şagirdlərə müraciət mətnini hazırladın və layihəni təqdim etmək üçün həvəskarları seçin.

Əgər layihəyə əsasən, belə bir təqdimat lazım deyilsə, onu həyata keçirməyə başlayın.

**Təqdim edilən layihə nəticələrinin yekunlaşdırılması və analizi**

Həvəskarlar qrupu layihənin nəticələrini təqdim edirlər. Diskussiya keçirilir.

Dərsdə şagirdlərin ictimai fəallığının nəticələri mövzusu barədə diskussiya keçirin. Yaxşı nəticədir, kafi və qeyri-kafi? Bu nəticəni nə üçün qəbul etdilər? Bu istiqamətdə daha hansı işlərin həyata keçirilməsini məqsədyönlü hesab edirsiniz?

Şagirdlərə izah edin ki, bu və ya digər problem nə üçün yaranmışdır; nəyi lazımi şəkildə edə bilmədilər və harada onlardan asılı olmayan qarşıdurma ilə üzləşdilər; belə bir qarşıdurmanı dəf etmək üçün nə etmək lazımdır.

# Əlavə

layihəni necə yazmaq üçün qısa dərslik materialı ilə tanış olun. Layihə ərizəsi növbəti hissələrdən ibarət olmalıdır:

**1. Titul vərəqi**
**2. Ərizəçi haqqında məlumat**
**3. Layihənin qısa xülasəsi**
**4. Problemin təsviri**
**5. Layihənin ətraflı təsviri**
**6. Layihənin həyata keçirilmə qrafiki**
**7. Layihənin benefisiarları**
**8. Layihənin benefisiarlarının sayı**
**9. Layihənin qiymətləndirilməsi**
**10. Layihənin büdcəsi**
**11. Risk amillərinin təsviri**

1. **Titul** vərəqinə təqdim edilən layihənin adını, layihənin həyata keçirilməsi üçün təyin edilən müddəti və layihənin müəllifi və müəlliflər qrupunu yerləşdirin.

2. **Ərizəçi haqqında məlumat** layihədə iştirak edən əsas tərəflərin, təşkilatların və ya fiziki şəxslərin fəaliyyətləri haqqında qısa məlumatdan ibarətdir. Bu informasiya bloku təşkilatın əsasının qoyulma tarixindən və onun tərəfindən həyata keçirilən fəallıqlardan, təqdim edilən layihə ilə və ya layihənin hər hansı bir komponenti ilə birbaşa əlaqədə olan layihələrdən ibarət olmalıdır. Tərəflərdən hər birinin və təşkilatın rəhbərinin əlaqə məlumatını göstərməyi unutmayın. Əlaqə məlumatında poçt və elektron ünvan, eləcə də, telefon və faksın nömrələri göstərilir. Hal-hazırda təşkilatların əksəriyyətinin öz internet-səhifələri və ya bloqları var, bunları da göstərməyiniz yaxşı olardı ki, lazım gəldiyi halda, layihə ərizəsini təhlil edən ətraflı informasiyanı məhz bu resurslardan qəbul edə bilsin. Ərizənin bu hissəsində hər bir tərəfdaşın hansı konkret işi və fəallığı həyata keçirdiyini təsvir edin.

3.**Layihənin qısa xülasəsi** əsasən layihə ərizəsi bitirildikdən sonra yazılır. Bu hissədə siz layihənin məqsədini, məqsədin həyata keçirilməsinin əsas yollarını və gözlənilən nəticələri yekunlaşdırmalı və çox qısa şəkildə formalaşdırmalısınız. Layihənin

qısa xülasəsini elə formalaşdırmalısınız ki, oxucunun layihənin gözlənilən nəticələri barədə ümumi təsəvvürü yaransın. Eləcə də çalışın ki, layihə çərçivəsində planlaşdırılmış əsas nailiyyətlərini qısa şəkildə təsvir edəsiniz.

4. **Problemin/tələbin təsviri**– layihə ərizəsinin əsas hissələrindən biridir, burada ərizədə göstərilən məsələni nə üçün problemli hesab etdiyinizi dəlillərlə əsaslandırmalısınız. Bu hissəni formalaşdırdıqda daha çox sübutlardan, statistik məlumatlardan, özünüzün və ya digərlərinin müşahidələrinin və tədqiqatların nəticələrindən istifadə etməyə çalışın. Suallara cavab verin: bu problem nə üçün yaranmışdır? Hansı mənbələrə əsaslanaraq problemli olması nəticəsini çıxarırsınız? Unutmayın ki, problemin qoyulması faktlara, obyektiv məlumatlara əsaslanmalıdır. Bu hissəni formalaşdırdıqda mənim fikrimcə, bizim müşahidəmizlə kimi mühakimələrdən boyun qaçırmağa çalışın. Yuxarıda göstərilən məlumatlara, faktlara və ya tədqiqata əsaslanaraq problemi əsaslandırmağınız yaxşı olardı.

5. **Layihənin ətraflı təsviri** - ərizədə verilən problemin həll edilməsi üçün əsas fəallıqları və yarımfəallıqları ayırmalısınız. Əyani göstərmək məqsədilə bu fəallıqları və sonra hər birinin yarımfəallıqlarını yazın. Bu hissəni hazırlamaq üçün növbəti suallara cavab verməlisiniz: hansı tədbirlər həyata keçirilir? Nə zaman, vaxtın və ya layihənin hansı mərhələsində və hansı tezliklə həyata keçirilir? Harada həyata keçirilir? Kim həyata keçirir? Onların həyata keçirilməsində kim məsuliyyət daşıyır? Sizin və digər oxucular üçün əyani etmək üçün layihənin fəallıqlarını və onu təşkil edən məlumatın sözlü təsvirinə qrafik şəkillər və ya cədvəllər əlavə edə bilərsiniz. Bunu tez-tez layihənin həyata keçirilmə qrafiki də adlandırırıq. Layihənin ətraflı təsvirə, əsas fəallıqlara və yarımfəallıqlara ayrılması gələcəkdə real və yaxşı hesablanmış büdcəni tərtib etməkdə sizə yardım edəcəkdir.

6. **Layihənin həyata keçirilmə qrafiki** - cədvəl şəklində təqdim edilən layihə əməllərinin həftələrə, aylara, kvartallara və bəzən illərə əsasənətraflı, zamanda yazılmış planı. Plan hansı fəallığın hansı vaxt müddətində həyata keçiriləcəyini göstərir. Bu planda eləcə də kiçik üçbucaqla (bu işarəni ingiliscə milestone adlandırırlar, yəni Mil daşı. Bu onu bildirir ki, əsas nəticə əldə edilmiş, fəallığın əsas hissəsi keçilmişdir) layihədə planlaşdırılmış əsas fəallığın başlıca nailiyyətinin nə zaman hazır olacağı müddəti (ay, həftə) göstərə bilərsiniz.

7. **Layihədən mənfəət əldə edən şəxslər (benefisiarlar)** – bu hissədə təsvir edin ki, qeyd edilən layihənin mənfəət gətirdiyi insanlar/insan qrupları kimlərdir. Təxmini göstərməyə çalışın ki, neçə insan mənfəət əldə edəcəkdir, yaxud da layihənin nəticəsi neçə insanın üzərində yayımlanacaqdır. Sonra layihənin nailiyyətini qiymətləndirdikdə bu təlimatdan istifadə edib qeyd edəcəksiniz ki, layihəniz müəyyən və ehtimal edilən insanlara xidmət edə bildimi və ya yox. Müsbət nəticə alındıqda layihənizin nailiyyət göstəricisindən biri olacaqdır.

8. **Benefisiarların bölünməsi** –benefisiarları kateqoriyalara əsasən bölməyiniz yaxşı olardı ki, (məs., 30 müəllim, 35 valideyn, 10 məktəbin administrasiyasının nümayəndələri, 100 icma nümayəndələri və s.) layihə nəticələrinin yayımlanma şəkli daha aydın olsun, nailiyyəti isə - daha ölçülü.

9. **Layihənin qiymətləndirilməsi** qiymətləndirmə kriterilərindən ibarətdir, yəni layihənin bu hissəsində necə ölçdüyünüzü və layihənin nailiyyətli olmasını nə zaman dediyinizi göstərirsiniz. Burada layihəyə cəlb olunan hər bir iştirakçı üçün sorğu anketini işləyib hazırlaya bilərsiniz. Sorğunu layihənin əvvəlində və sonunda keçirə bilərsiniz və ya təsadüfi seçim əsasında layihənin nəticələrinin əhəmiyyəti haqqında cəmiyyətin, layihə ilə faydalanan şəxslərin, yerli icmanın, ailə üzvlərinin fikrini öyrənmək üçün sorğu apara bilərsiniz.

10. **Layihənin büdcəsi** yuxarıda qeyd etdiyimiz kimi, layihənin ətraflı təsvirindən irəli gəlir. Buradaca donor təşkilatdan hansı miqdarda məbləği istədiyinizi və ərizəçinin iştirakçılarını (insan və maddi-texniki resurslar şəklində, məs., layihəni həyata keçirənlər tərəfindən layihə üçün təmənnasız əmək, layihə üçün konfrans zalının və ya texnikanın pulsuz verilməsi və sairə) göstərə bilərsiniz . Unutmayın ki, maliyyələşdirmə tələbatlı layihə də yazıla bilər. Konkret halda layihəni yerinə yetirmək üçün təmənnasız işləməyiniz daha real olardı, maliyyə xaricində. Belə bir layihənin həyata keçirilmə şansı daha çox olacaq, çünki maliyyəni əldə etmək çətindir və layihənin həyata keçirilməsini təhlükə altına salır. Sizin əsas məqsədinizi isə təkcə layihəni tərtib etmək deyil, eləcə də, onu həyata keçirmək təqdim edir.

11. **Risk amillərinin təsviri** – layihəni yazmağa başlayana qədər düşünməyiniz və yazmağınız vacibdir ki, layihəni həyata keçirdikdə hansı mümkün çətinliklərlə rastlaşa bilərsiniz. Risk-amilləri yazın

və sonra ən çox gözlənilən amillərin dəf edilməsinin və qarşısının alınmasının planını tərtib edin. Eləcə də, təsvir edilən risk halında konkret fəallıqları həyata keçirəcək konkret şəxsi/şəxsləri ayırın. Həyata keçiriləsi təxirəsalınmaz fəallıqların siyahısını və yerinə yetirilməsinin ardıcıllığını yazın. Riskləri idarə etmək üçün əvvəlcədən tədbir görməyi unutmayın ki, sonra layihənin həyata keçirilməsi yarımçıq qalmasın.

# Lüğət

**Avtokratiya (yunanca – özünüidarəetmə)** – dövlətin idarəetmə forması, bu zaman tam hakimiyyət yalnız bir insana məxsusdur.

**Apatiya** – həvəsin, marağın olmaması, hər şeyə soyuqqanlı yanaşmaq.

**Aparteid** – Cənubi Afrikada irqi bölgü prinsipi; dini diskriminasiyanın formalarından biridir, hansını ki, idarəedən təbəqə yerli əhaliyə qarşı həyata keçirir.

**Aktual** – çox mühüm, olduqca önəmli.

**Bəyannamə** – elan, ictimai sənəd. Onda təyinatından irəli gələrək müxtəlif növ məlumatlar verilir. Bəyannamədə tərəflər arasında razılaşdırılmış prinsiplər və strategiyalar formalaşdırılmışdır. Birləşmiş Millətlər Təşkilatı (BMT) tez-tez böyük təsirə malik məcburi xarakter daşımayan bəyannamələri dərc edir.

**BMT** – Birləşmiş Millətlər Təşkilatı. Ümumi sülhün təmin edilməsi və dövlətlərarası əməkdaşlığın beynəlxalq təşkilatı. 1945-ci ilin iyunun 26-da yaradılmışdır. Bu zaman San-Fransisko konfransında50-dən çox dövlət onun nizamnaməsinə imza atdı. Nizamnamə 1945-ci ilin oktyabrın 24-də qüvvəyə mindi. Həmin gün hər il dünyada BMT günü kimi qeyd edilir.Hal-hazırda BMT-nin 192 üzvü vardır. BMT-nin əsas məqsədləridir:

- beynəlxalq sülhü qorusun;
- xalqların hüquq bərabərliklərinə və özünü gerçəkləşdirmə prinsipinə əsaslanandövlətlərin dost münasibətlərini inkişaf etdirsin;
- iqtisadi, sosial, mədəni və humanitar problemlərin həlli üçün beynəlxalq əməkdaşlığı həyata keçirsin;
- irqinə, cinsinə, dilinə və dininə baxmayaraq insanın əsas hüquqlarına ümumilikdə hamının hörmət göstərməsinə imkan yaratsın

**Dilemma** – 1. (mən.)iki, bir-birini istisna edən qaydalardan ibarətmüzakirə və ya nəticədir, hansılardan birinin seçilməsi vacibdir.  2. Elə bir vəziyyətdir, nə zaman ki, xoşagəlməz imkanlardan birini seçmək lazımdır.

**Diskriminasiya** — ayrı-ayrı şəxslərin və ya qrupların hüquqlarının məhdudlaşdırılması və ya əsaslandırma xaricində onlara mənfi yanaşma.

**Diktatura** — hakim sinfin və ya hakim şəxsin dövləti qeyri-məhdud şəkildə idarəetməsi.

**Etnosentrizm** — bir etnik qrupun digərindən yaxşı olması fikri.

**Elektorat** — müxtəlif səviyyəli seçkilərdə iştirak edə və hər hansı bir qrupun tərəfini tuta bilən insanlar.

**Emiqrant** — daimi yaşayış üçün başqa dövlətə köçüb gedən şəxs.

**İcma** — iki və ya bir neçə qəsəbənin və ya kəndin sakinlərinin birliyi.

**İrqi diskriminasiya** — insana irqinə, dərisinin rənginə, mənşəyinə, milli və ya etnik mənsubiyyətinə görə hər hansı bir məhdudiyyətin, fərqin, istisnanın və ya üstünlüyün verilməsi prosesi. İrqi diskriminasiya zamanı siyasi, iqtisadi, sosial, mədəni və ya ictimai həyatın hər hansı bir başqa sahəsində insanın fərdi hüquqlarının və əsas azadlıqlarının, bərabərlik prinsiplərinin tanınması və onun həyata keçirilməsi imkanları inkar edilir, kiçildilir.

**İnsan hüquqlarının ümumi bəyannaməsi** — BMT-nin Baş Assambleyası tərəfindən 1948-ci ilin dekabrın 10-da qəbul edilmişdir və həm mülki və siyasi, eləcə də iqtisadi, sosial və mədəni hüquqlara aiddir. Xüsusilə də bəyannamə ilə yaşamaq haqqı, şəxsi toxunulmazlıq hüququ və s. kimi hüquqlar nəzərə alınmışdır. Ümumi bəyannamə hüquqi baxımdan icbari deyil, tövsiyə xarakterli sənəddir.

**Kommunizm** — ictimai-siyasi ideologiya, hansına əsasən həm hökümət, eləcə də mülkiyyət cəmiyyətin əlində olmalıdır. İctimai firavanlıq ümumilikdə əlçatılan olmalıdır. Marksist nəzəriyyəsinə əsasən kommunizm ictimai inkişafın son nöqtəsi, sinifsiz ictimaiyyətdir. Cəmiyyətin hər üzvü qabiliyyət və imkanları çərçivəsində çalışır, amma tələbatına əsasən alır.

**Kompromis** — qarşılıqlı güzəşt yolu ilə əldə edilən razılıq.

**Konsensus** — bütün fikirləri nəzərə almaqla qrupun ümumi razılaşmaya gəlməsi.

**Marginal** — sosial qrupdan kənarlaşdırılan, təcrid olunan.

**Məqsədə nail olmaq üçün təbliğatçı (təbliğat aparan şəxs)** — mühüm faktlardan yan keçir və ya onu eybəcərləşdirir və auditoriyaya yalnız onun üçün qəbul edilən məlumatı çatdırmağa çalışır.

**Məhdud imkanlı şəxs** — xəstəlik, travma, əqli və ya fiziki qüsuru nəticəsində sağlamlığı az-çox pozulduğuna görə orqanizminin həyat funksiyaları pozulan məhdud imkanlı şəxs. Bu da peşəkar əmək qabiliyyətinin tam və ya qismən itirilməsinə və ya məişət həyatının mühüm şəkildə çətinləşməsinə səbəb olur və əmək qabiliyyətinin müvəqqəti və ya ömürlük məhdudlaşdırılmasına və sosial cəhətdən müdafiə olunmaq tələbatına gətirib çıxarır (Tibb, sosial ekspertiza haqqında Gürcüstan qanunu, Ümumi nizamnamə, maddə 3).

**Milli azlıqlar** — verilən ölkədə daim yaşayan əhalinin qeyri-dominant hissəsi. Bu hissə əhalinin əksəriyyətindən öz etnik, dini və ya linqvistik xüsusiyyətləri ilə seçilir və öz varlığını qoruyub saxlamağa çalışır.

**Müxtəliflik** — cəmiyyət üçün əhəmiyyətli məsələlərə aid olan qərarların qəbul edilməsində bütöv cəmiyyət və icma, bütün azlıq qrupu ədalətli şəkildə iştirak edir.

**Nihilizm** — hər şeyə soyuqqanlı yanaşma.

**Opponent** — mübahisə zamanı əks fikirli insan.

**Plüralizm** — fikirlərin müxtəlifliyinin olması və onların tanınması.

**Portfolio** — işlərin toplumu, bir növ qovluq. Portfolio şagirdin yerinə yetirdiyi ev və sinif tapşırıqlarından, qrup layihələrinin hesabatlarından və s. ibarət ola bilər. Portfolionun təyinatıdır ki, şagird materialı toplasın, işini özü qiymətləndirsin və hansı biliyi aldığını və seçilmiş mövzu üzərində iş prosesində hansı vərdiş-bacarıqları qazandığını dərk etsin. Portfolio imkan verir ki, şagird hansı səhvləri buraxdığını anlasın və gələcəkdə buna bənzər səhvlərin qarşısını ala bilsin.

**Gender bərabərliyi** — qadın və kişinin eyni hüquqları və imkanları, eyni məsuliyyətləri və vəzifələri.

**Genosid** — fövqəladə sistematik əməllər (qətl, fiziki və əqli zərər yetirilməsi, doğumun məhdudiyyəti, uşaqların doğma yerlərindən zorla uzaqlaşdırılmas)ı. Genosidin məqsədi konkret etnik, siyasi və ya mədəni qrupun ləğv edilməsi və ya onun dilinin, dininin və mədəniyyətinin məhv edilməsidir.

**Qədim yunan şəhər** — dövlətləri bir-birindən çox fərqli idilər: idarəetmə forması ilə, sosial iyerarxiya ilə, qanunvericilik strukturu ilə və qərarların qəbul edilmə prosedurları ilə. Məs., Afinada demokratik idarəetmə idi, Spartanı isə 2 şah idarə edirdi.

**Rasizm (irqçilik)** — insanların bir irqinin digərindən yaxşı olması barədə düşüncə.

**Stereotip** — insanların və ya ideyaların çox sadə, ayrı və bir çox hallarda qeyri-şüuri anlayışıdır, hansı ki, əvvəlcədən yaradılmış mənfi fikrə və diskriminasiyaya səbəb ola bilə. “Stereotip” termini çap avadanlığının adı ilə əlaqələnir. Stereotip bütöv polad çap formasıdır və onu yaratdıqdan sonra çətinliklə dəyişilir.Məcazi mənada, stereotip dəyişilməyəni, şablonu bildirir.

**Stiqma** — Qədim Yunanıstanda: qulun və ya müqəssirin bədəninə vurulan damğa. İnsanların mənfi damğa ilə təyin olunması.

**Təbliğat, propaqanda** — (lat. propaganda,hərfi mənası – yayımlanmaya aid olan) müxtəlif simvolların vasitəsilə (sözlə, lozunqlarla, musiqi ilə, media vasitələri ilə və s.) insanların nəzərlərinə, fikirlərinə, ümumiyyətlə, şüura ideya təsiri göstərilir. Məqsədə nail olmaq üçün təbliğatçı (təbliğat aparan şəxs) mühüm faktlardan yan keçir və ya onu eybəcərləşdirir və auditoriyaya yalnız onun üçün qəbul edilən məlumatı çatdırmağa çalışır.

**Şəhər-dövlət** — (yunanca, - Polis) müstəqil, muxtar təsisat. Qədim Yunanıstanda şəhər-dövlətlər mədəniyyətin ayrı-ayrı idarəetmə vahidləri idilər.Onların ümumi dilləri, dini təsəvvürləri və dünyagörüşləri var idi. Amma qanunvericilik və şəhərin idarəetməsi suveren dövlət prinsipinə əsasən təqdim olunurdu. Yunanlar şəhər-dövləti polis adlandırırdılar. Politika (siyasət) termini məhz buradan götürülmüşdür.O, yalnız bir şəhərdən ibarət idi, necə ki, müasir Monako və Lüksemburqda olduğu kimi.

**İstifadə olunan ədəbiyyat**

(İstifadə olunan ədəbiyyatla tanışlıq dərslikdə təhlil edilən mövzuları daha dərindən öyrənməyə yardım edəcəkdir)


1. İnsan hüquqlarının lüğəti, Tbilisi, 2005-ci il;
2. Aktiv vətəndaşlığın dərsliyi, Azad İnstitut, 2005-ci il;
3. “ Demokratiyaya keçid mərhələsi və fəal vətəndaşlıq”, Malxaz Beqiaşvili, Davit Bostoğanaşvili, Diana Lejava, Davit Losaberidze, Mariam Mkalavişvili, Qiorqi Nozadze, Solomon Nozadze. Tbilisi, 2007 (DVV international ”Tbilisi Layihələr Bürosu”-nun tərəfdaşlığı ilə);
4. Milli Tədris Planı 2011-2016-cı il. Gürcüstan təhsil və elm nazirinin 2011-ci il 11 mart N 36/5 fərmanı ilə;
5. “İnsan hüquqlarını öyrədək” – müəllimlər üçün dərslik - Helqe Brokman, Ranhild Laqer, Edrid Midtun, Hokan Vali. 1998-ci il;
6. Ümumi təhsilin milli məqsədləri – Gürcüstan hökümətinin fərmanı N 84, 2004-cü il 18 oktyabr, Tbilisi;
7. “Kompas” - insan hüquqlarının təhsili sahəsində gənclərin iştirakları - Patrisiya Brander, Rui Qomes, Elli Kin və s., gürcü nəşr. Red. Qiorqi Kençoşvili, Tbilisi 2004;
8. “Kompasito” - insan hüquqlarının təhsil sahəsində uşaqlar üçün dərslik – Nensi Flauers, Co Kleys, Rania Fazah, Anet Şnayder, Jujana Selen. 2009-cu il;
9. `”Müəllimlərin kompetensiyaları çərçivəsi” – Piter Bret, Paskal Mompoint-Qelard, Maria Elena Salema. Council of Europe. Gürcü dilində ilk nəşr,Müəllimlərin Peşəkar İnkişaf Mərkəzi, 2009-cu il;
10. “Rəngarəngliyin idarəetməsinin əsasları”, “Tərəfdaşlar - Gürcüstan”, 2010-cu il;
11. `”İlk addımlar” – insan hüquqlarının təhsili üçün ibtidai dərslik - Amnesty İnternational, 1996-cı il;
12. Peşəkar müəllimin 9 xüsusiyyəti, - praktiki bələdçi, - Ternbul, Müəllimlərin Peşəkar İnkişafı Mərkəzi, 2009-cu il;
13. Mülki təhsil, Müəllimlərin kitabxanası, tom I, II. Lüğət, məlumat kitabçası. Tbilisi, 2010-ci il., Milli İmtahanlar Mərkəzi;

14. Vətəndaş cəmiyyəti, müqayisəvi analiz (mühazirə kursu), marina Musxelişvili. Tbilisi, 2006-cı il;
15. “Məktəbdən vətəndaş cəmiyyətinə” (İnteraktiv tədris üçün materiallar) , 2003-cü il., Müəlliflər qrupu (Norveçin Qaçqınlar Şurasının dəstəyi ilə); “Hüquqlara doğru yol”, 2002-ci il. Müəlliflər qrupu (Norveçin Qaçqınlar Şurasının dəstəyi ilə);
16. “Demokratik cəmiyyətdə həyat”, Rolf Qolob, Ted Hudleston, Piter Kraf, Don Rouvi, Uim Taelman. III kitab. Gürcü dilində ilk nəşr. Müəllimlərin Peşəkar İnkişaf Mərkəzi, 2009-cu il
17. We the People - Project Citizen - Center for Civic Education, 2001;
18. www.hrea.org/compendium
19. www.undp.org/LgalEmpowerment
20. www.wisegeek.com

**Faydalı linklər**

1. www.civics.ge
2. www.coe.int/compass
3. www.hreoc .gov.au/education/index.html
4. www.minorityrights.org